Dünyada bir qərib və ya bir müsafir kimi ol!

Abdullah bin Ömərdən (Allah onların hər ikisindən razı olsun) rəvayət edilir ki, o, demişdir: Peyğəmbər (sallallahu aleyhi və səlləm) mənim çiynimdən tutub dedi: "Dünyada bir qərib və ya bir müsafir kimi ol!". İbn Ömər (bu hədisi danışandan sonra) deyərdi: Axşama çıxdığın zaman səhəri, səhərə çıxdığın zaman da axşamı gözləmə! Xəstəliyin üçün sağlamlığında, ölümün üçün həyatında hazırlıq gör.

[Səhih] [Əl-Buxari rəvayət etdi]

İbn Ömər (Allah onların hər ikisindən razı olsun) rəvayət edir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) onun çiynindən - oda insanın əzələ və çiyin nahiyəsinin birləşdiyi hissədir - tutub ona belə dedi: Dünyada sanki sığınacaq evi və ona təsəlli verəcək bir kimsəsi olmayan, insanı Allahdan uzaqlaşdıran ailəsi, övladı və insanlarla əlaqəsi olmayan bir məmləkətə gələn qərib bir insan kimi ol. Əkisinə bu işdə qərib insandan da daha sərt, vətənini axtaran, yoldan keçən yolçu kimi ol. Çünki qərib bir adam yad ölkədə yaşaya və orada müəyyən bir müddət qala bilər. Lakin vətəninə getmək istəyən yolçu özü ilə çox yük götürməz, olduğu yerdə qalmaz və vətəninə çatmağa can atar. Müsafir kimsənin səfərinin sonuna çatdıracaq azuqədən artığına ehtiyacı olmadığı kimi, həmçinin möminin də dünyada gedəcəyi yerə çatdıracaq azuqədən artığına ehtiyacı olmamalıdır. İbn Ömər bu tövsiyəyə əməl edər və belə deyərdi: Səhərə çıxdığın zaman axşamı gözləmə, axşama çıxdığın zaman da səhəri gözləmə və özünü qəbir əhlindən say, çünki həyat sağlamlıqdan və xəstəlikdən xali deyildir. Odur ki, sağlam günlərində, xəstə günlərin üçün itaət əməllər etməyə tələs. Xəstəlik sizə maneçilik törətməmişdən əvvəl sağlamlığında saleh əməllərdən və dünyada da həyatından faydalan və orada, öldükdən sonra sənə fayda verəcək şeyləri topla.

http://sunnah.global/hadeeth/az/show/4704